# Yaddaşlarda vətənpərvər oğul, cəsur döyüşçü, istedadlı musiqiçi kimi qalıb

**Hər bir insan üçün Vətən doğma və əzizdir. Çünki o, Vətəndə dünyaya göz açır, onun qoynunda qayğısız uşaqlıq çağlarını yaşayır, illəri arxa-da qoya-qoya böyüyüb yaşa dolur. Yaşa doldaqca da yurduna, torpağına olan sevgisi daha da artır. Zaman keçdikcə özü də hiss etmədən bu sevgi Vətən sevgisinə çevrilərək, qanına, ruhuna hopur.**



Vətən sevgisi zaman-zaman onu yurdunun, torpağının müdafiəsi və azadlığı uğrunda vuruşmağa, lazım gələrsə, canını fəda etməyə hazırlayır. Vətənə düşmən təcavüzü olanda isə silahlanaraq döyüşlərə yollanır, yurdunu, torpağını qoruyur. Bəzən isə bütün nəsillərə nümunə olaraq canından çox sevdiyi Vətəni uğrunda şəhid olur.

Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Tamerlan Fuad oğlu Mahmudov da şərəf dolu bir ömür yaşayıb. Vətən torpaqlarına düşmən hücumu başlayanda çağırış gözləmədən döyüşlərə yollanıb, Qarabağın azadlığı uğrunda gedən əks-hücum əməliyyatları zamanı üzərinə düşən döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Həm döyüş, həm də ömür yolu yarıda qırılıb.

Onun yaşadığı ömür qısa, lakin şərəfli olub. Tamerlan Mahmudov 1995-ci il martın 21-də Bakıda doğulub. 3 yaşı olanda anası ilə birlikdə Sankt-Peterburqa gedib. Bir müddət burada yaşayıb. Lakin səhhətində yaranmış problemlə əlaqədar vətənə qayıdıb. Burada sevimli nənəsinin və onu ürəkdən sevən xalalarının yanında yaşayıb. 2002-2006-cı illərdə Bakıdakı 107 və Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun adını daşıyan 32 nömrəli məktəblərdə təhsil alıb.

Tamerlan hələ kiçik yaşlarından qeyri-adi istedadı, musiqiyə olan sonsuz marağı və həvəsi ilə yaşıdlarından seçilib. Elə bu maraq və həvəsin təsir dairəsindən çıxa bilmədiyinə görə 2006-cı ildən təhsilini Mərdəkan qəsəbəsindəki 2 nömrəli internat məktəbində davam etdirib. Düzdür, onun oxuduğu məktəb şəhərin mərkəzindən uzaq idi. Amma iş onda idi ki, Tamerlanın böyük maraq göstərib seçdiyi musiqi aləti olan tuba məhz bu internat məktəbində tədris olunurdu. Beş il burada təhsil alan Tamerlan 2011-ci ildə müəllimi Rafael Əzimovun köməyi ilə Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinə musiqiçi kimi işə düzəlir. İki il burada dirijor və müəllimi Əlibala Rzayevin rəhbərliyi altında müxtəlif konsert və tədbirlərdə bir-birindən maraqlı çıxışlar edir.

2013-cü ildə Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirməyin zamanı çatanda Tamerlan Mahmudov hərbi xidmətə yollanır. Qismətinə Murovdağ istiqamətində xidmət etmək düşür. Elə ilk günlərdən başlayaraq hərbi bilikləri və silahların sirlərini dərindən yiyələnir, atış çalışmalarında fərqlənən əsgərlərdən biri olur. Tamerlan xidmətini manqa komandiri kimi başa vuraraq doğmalarının, əzizlərinin yanına dönür.

Hərbi xidmətdən döndükdən bir müddət sonra - 2014-cu ildə Tamerlan Mahmudov sevimli kollektivinin tərkibində Dövlət Sərhəd Xidmətinin nümunəvi orkestrində fəaliyyətini davam etdirir. Yeni-yeni tədbirlərə, konsertlərə qatılır, müxtəlif səhnələrdə yaddaqalan musiqi nömrələri ifa edir. Xaraktercə ünsiyyətcil, söhbətcil və mehriban olduğuna görə qısa müddət ərzində özünə xeyli dost-tanış tapır. Musiqiyə olan həvəsi, istedadı Tamerlana imkan verirdi ki, simli alətlərdə də ifa etsin, bacarığını göstərsin. Peşəkarların dediyinə görə bu, onda çox yaxşı alınırmış. Gitarada ifa etdiyi mahnılar eşidənləri heyran edirmiş.

Gələcəyin tanınmış musiqiçisi olacaq Tamerlan Mahmudov Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrində 2018-ci ilədək işləyir. Neçə ildən bəri üz-gözü öyrəşdiyi kollektivdən ayrıldıqdan sonra Dövlət Nəfəs Alətləri Orkestrində işə düzəlir. Olduqca mükəmməl bacarığa malik gənc musiqiçi tuba ifaçısı kimi ölkəmizi yerli və xarici səhnələrdə uğurla təmsil edir. Ona bəslənən ümidləri, etimadı doğruldur. Fəaliyyətində əldə etdiyi uğurlara görə respublika, eləcə də müxtəlif səviyyəli beynəlxalq müsabiqələrdə diplomlara layiq görülür.

Getdikcə musiqi aləmində tanınan və sevilən Tamerlan sənətini daha da dərindən öyrənmək üçün 2016-cı ildə Azərbaycan Milli Konservatoriyasının nəzdindəki Musiqi Kollecinə qəbul olur. Kollecdə oxuduğu illər ərzində də bir çox uğurlar qazanır, müxtəlif konsert salonlarında oxuduğu təhsil ocağını layiqincə təmsil edir. Dostları və qrup yoldaşlarının dediklərinə görə, Tamerlanın bənzərsiz səsi də var imiş. Buna görə də o, kollecin xor kollektivi ilə birlikdə tədbirlərdə iştirak edir, həzin, məlahətli səsi ilə tamaşaçıları heyrətləndirirdi. Tamerlan Mahmudov beləcə 2020-ci ildə Musiqi Kollecini yüksək göstəricilərlə başa vurur.

Tamerlanın qəlbində, ürəyində musiqi ilə yanaşı, qoynunda dünyaya göz açdığı vətəninə, torpağına sonsuz sevgi də var idi. Bu sevgi bütün sevgilərin zirvəsində dayanırdı. Elə İkinci Qarabağ müharibəsi başlayanda onu döyüşlərə aparan da bu sevgi oldu. Onun döyüş yolu Füzuli rayonundan başladı. Ordu sıralarında xidmət edərkən silahların sirlərini dərindən öyrəndiyinə, taktiki gedişləri mənimsədiyinə görə Tamerlan üçün erməni qəsbkarları ilə vuruşmaq çətin deyildi. O silahının hədəfinə tuş gələn qəsbkarları dəqiq atəşlə məhv edirdi.

Bir müddətdən sonra onların bölüyünü Cəbrayıl rayonuna gətirirlər. Həmişəki kimi Tamerlan yenə də ön sıralarda vuruşur, komandirlərin verdiyi tapşırıqları böyük cəsarətlə, ölümün gözünə dik baxa-baxa yerinə yetirirdi. Döyüşdən-döyüşə təcrübəsi daha da artırdı. Çox keçmədi ki, Tamerlangili yenidən Füzuli rayonuna gətirdilər. Onun üçün ərazinin heç bir fərqi yox idi. Əsas o idi ki, uzun illərdən bəri erməni işğalında qalmış torpaqlarımız addım-addım qəsbdən azad olunurdu. İrəliyə atdığı hər addım onu Şuşaya, Laçına və başqa bölgələrimizə yaxınlaşdırırdı.

Tamerlan oktyabrın 17-də yenə də doğmalarına zəng vurub döyüşlərdə qazandıqları uğurlardan söz açdı. Düşmənin onların qarşısında duruş gətirməyərək qaçdığını, hər gün yeni yaşayış məntəqələrini azad etdiklərindən danışdı. Sözünün sonunda dedi ki, sizi çox sevirəm, inşallah sabah yenə də zəng vurub düşmən üzərində qazandığımız uğurlardan xəbər verəcəm, bir-birindən yaxşı xəbərlər gözləyin. Ertəsi gün isə ailəsinə onun döyüşlərdə şəhid olduğu xəbərini verdilər. Bu xəbər ailəsini, doğmalarını, dostlarını sarsıtdı. Tamerlan Mahmudov Suraxanı rayonundakı Dədə Qorqud qəbiristanlığında torpağa tapşırıldı.

Döyüş yoldaşlarının və komandirlərinin dediyinə görə, Tamerlan çox mərd, cəsur və döyüşkən əsgər idi. Sonuncu əməliyyatda əgər onun qəhrəmanlığı olmasaydı, bəlkə də döyüş yoldaşlarının çoxu şəhid olacaqdı. Çünki onların düşdükləri vəziyyətdən sağ-salamat çıxmaq ehtimalları sıfıra bərabər idi. İkinci Qarabağ müharibəsində göstərdiyi bu igidliyə və cəsarətə görə Tamerlan Fuad oğlu Mahmudov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medallarına layiq görülüb.

Yaxın qohumu Jalə Atayeva onu kövrək hisslərlə xatırlayır: "Tamerlan çox vətənpərvər oğlan idi. Ona görə də torpaqlarımızın azadlığı uğrunda müharibə başlayan kimi könüllü olaraq döyüşlərə yollandı. Neçə-neçə qanlı döyüşlərdə iştirak etdi. Tez-tez zəng vurub sevinə-sevinə düşmən üzərində qazandıqları zəfərlərdən danışardı. Təəssüflər olsun ki, Tamerlanı çox tez itirdik. Biz yaxınları onu həmişə cəsur əsgər, bacarıqlı musiqiçi, vətənpərvər oğul kimi xatırlayacağıq. Onu heç vaxt unutmayacağıq, həmişə ehtiramla yad edəcəyik".

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 21 avqust (№175).- S.11.